**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları”nın təsdiq edilməsi haqqında” 2014-cü il 3 aprel tarixli 94 nömrəli, “Diridoğulmanın beynəlxalq meyarları”nın tətbiq edilməsi haqqında” 2014-cü il 21 oktyabr tarixli 340 nömrəli, “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında” Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1080-IVQD nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə” 2015-ci il 28 aprel tarixli 122 nömrəli, “Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2015-ci il 21 sentyabr tarixli 311 nömrəli və “Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2016-cı il 2 avqust tarixli 289 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, 4, maddə 440, 11, maddə 1513; 2015, 5, maddə 665; 2016, 3, maddə 615, 5, maddə 955, 9, maddə 1563, 10, maddə 1733; 2017, 1, maddə 123, 8, maddələr 1616, 1623, 9, maddə 1758; 2018, 2, maddə 343, 3, maddə 622, 4, maddə 809, 5, maddə 1126, 8, maddə 1817, 10, maddə 2162, 11, maddə 2439; 2019, 3, maddə 522, 12, maddə 2101; 2020, 2, maddə 206) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları”nın 20-1.11-ci bəndində “səhiyyə” sözü “tibb” sözü ilə əvəz edilsin.

2. “Diridoğulmanın beynəlxalq meyarları”nın tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 21 oktyabr tarixli 340 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, 10, maddə 1310) 1-ci hissəsində “səhiyyə” sözü “tibb” sözü ilə əvəz edilsin.

3. “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklərin edilməsi haqqında” Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1080-IVQD nömrəli Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 28 aprel tarixli 122 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 5, maddə 610) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə Qaydası”nın 2.1-ci bəndində “Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi” sözləri “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 21 sentyabr tarixli 311 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 10, maddə 1225; 2016, 7, maddə 1343, 11, maddə 1977; 2017, 12 (II kitab), maddə 2552; 2018, 2, maddə 354, 12 (II kitab), maddə 2730; 2019, 5, maddə 983, 7, maddələr 1318, 1330; 2020, 5, maddə 633) ilə təsdiq edilmiş “Sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin və məlumatların rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları”na 7 nömrəli əlavə - “Müavinət, təqaüd və kompensasiyanın təyin edilməsi üçün tələb olunan sənədlərin siyahısı”nın 2.18.1-ci yarımbəndində “Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Elmi Tədqiqat” sözləri “Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin V.Y.Axundov adına Elmi-Tədqiqat” sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 avqust tarixli 289 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 8, maddə 1429; 2017, 4, maddə 674; 2018, 4, maddə 812; 2019, 6, maddə 1158) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında elmi ekspedisiyaların təşkili və aparılması Qaydaları”nın 5.1.5-ci yarımbəndində aşağıdakı dəyişikliklər edilsin:

5.1. birinci cümlədə “Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin” sözləri “dövlət tibb” sözləri ilə əvəz edilsin;

5.2. ikinci cümlədə “səhiyyə” sözü “dövlət tibb” sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 noyabr 2020-ci il
468